28 MAY MÜSTƏQİLLİK GÜNÜDÜR!

21 (1223) • 26 may - 1 iyun 2022-ci il

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

SÜLH DANIŞIQLARI AZƏRBAYCANIN ŞƏRTLƏRİ ƏSASINDA APARILACAQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə mayın 22-də Belçika Krallığının paytaxtı Brüsseldə işgüzar səfərdə olub.

Mayın 22-də Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü olub.

Görüşdə Prezident İlham Əliyev Şarl Mişelin Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması, iki ölkənin münasibətlərinin normallaşdırılması, nəqliyyat dəhlizlərinin açılması, sərhədlərin delimitasiyası və demarkasiyası proseslərinə verdiyi dəstəyi yüksək qiymətləndirib.

Bu formatda Avropa İttifaqının təşəbbüsü və vasitəçiliyi ilə üçüncü dəfədir ki, görüşün keçirildiyini qeyd edən dövlətimizin başçısı bu görüşün təşkilinə görə Şarl Mişelə təşəkkürünü bildirib.

Prezident İlham Əliyev Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üçün Azərbaycan tərəfindən beynəlxalq hüquqa əsaslanan 5 prinsipin təqdim olunduğunu qeyd edib və bu prinsiplərin sülh müqaviləsinin hazırlanmasında əsas rol oynadığını vurğulayıb.

Dövlətimizin başçısı iki ölkə arasında sülh müqaviləsinin hazırlanması prosesinin sürətli şəkildə həyata keçiriləcəyinə ümidvar olduğunu bildirib.

Prezident İlham Əliyev bu il aprelin 6-da Azərbaycan, Ermənistan və Avropa İttifaqı arasında keçirilmiş görüşün nəticələrinə uyğun olaraq, Azərbaycanın aprelin sonunda sülh müqaviləsi üzrə danışıqlara başlamaq üçün İşçi Qrupunun tərkibini, həmçinin sərhədlərin delimitasiyası üzrə milli komissiyanın tərkibini müəyyənləşdirdiyini və bu xüsusda danışıqlara hazır olduğunu bir daha qeyd edib.

Azərbaycan Prezidenti İlham Əliyev, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə mina problemi və Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan 4 minə yaxın şəxsin taleyinə aydınlıq gətirilməsinin vacibliyini bir daha vurğulayıb.

Dövlətimizin başçısı 10 noyabr Bəyanatının bütün müddəalarının Ermənistan tərəfindən icra olunmasının zəruriliyini qeyd edib.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Avropa İttifaqının Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesinə dəstək vermək əzmini bir daha ifadə edib, vasitəçilik səylərini davam etdirəcəyini bildirib və bu formatda keçirilmiş əvvəlki görüşlərin əhəmiyyətinə toxunub. Şarl Mişel Brüsseldə bu formatda görüşdə iştirakına görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

* * * * *

Mayın 22-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olub.

ŞARL MİŞEL: "SƏRHƏD KOMİSSİYASININ İLK İCLASI AZƏRBAYCAN PREZİDENTİ VƏ ERMƏNİSTANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞDƏN SONRA NƏZƏRƏÇARPAN İRƏLİLƏYİŞDİR"

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası üzrə komissiyanın görüşü ilə bağlı rəsmi tviter hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Bu gün Ermənistan-Azərbaycan sərhədində dövlətlərarası sərhədin delimitasiyası və vəziyyətin təhlükəsizliyinin ən yaxşı şəkildə təmin edilməsi ilə bağlı müzakirələrin aparılması üçün təşkil edilən Sərhəd Komissiyasının ilk iclasını səmimiyyətlə qarşılayıram. Sərhəd Komissiyasının ilk iclası Azərbaycan Prezidenti və Ermənistanın baş naziri ilə görüşdən sonra nəzərəçarpan irəliləyişdir.

2021-ci ilin dövlət büdcəsinin icrasının müzakirəsinə başlanıb

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.

İclasda Maliyyə naziri Samir Şərifov, maliyyə nazirinin müavini Azər Bayramov, iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova, Dövlət Statistika Komitəsinin sədrinin müavini Yusif Yusifov, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini İlkin Vəliyev iştirak edib.

İclasın gündəliyinə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi, "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat"ı və "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə və "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat"a Hesablama Palatasının rəyi daxildir.

Qeyd edək ki, bundan əvvəl komitədə Maliyyə Nazirliyi və Hesablama Palatasının nümayəndələri ilə 2021-ci ilin dövlət büdcəsinin icrası ilə bağlı işgüzar, peşəkar və elmi müzakirələr aparılıb.

Azərbaycanın 100 illik iqtisadi inkişaf tarixi yazıldı

Mayın 24-də Bakı Biznes Mərkəzində akademik Ziyad Səmədzadənin bu günlərdə işıq üzü görən "Azərbaycan iqtisadiyyatı 100 ildə" beşcildliyinin təqdimatı keçirilib.

Tədbirə moderatorluq edən UNEC-in rektoru, professor ***Ədalət Muradov*** *"Azərbaycan iqtisadiyyatı 100 ildə" beşcildliyini Azərbaycan iqtisad elmi üçün fundamental, dəyərli mənbə adlandırıb, yeni nəşrin əhəmiyyətindən, özəlliklərindən bəhs edib.*

O, bildirib ki, bu kitab müəllifin uzunillik elmi-iqtisadi araşdırmalarının və yaradıcılığının növbəti bəhrəsidir və burada Azərbaycan iqtisadiyyatının son 100 ildə keçdiyi yol elmi cəhətdən geniş təhlil edilir: "Azərbaycan iqtisadiyyatının yüz illik dövrü barədə ən fundamental araşdırmaları və analitik yanaşmanı özündə əks etdirən nəşrdə respublikamızın hərtərəfli inkişaf modelinin elmi-nəzəri əsasları barədə dərin tədqiqi materiallara geniş yer verilib. Müəllif Azərbaycan iqtisadiyyatının inkişaf meyilləri barədə informasiyaları, müqayisələri həm də cədvəllər və qrafiklər əsasında oxucuya çatdırır. Beşcildlikdə zəngin arxiv materialları əsasında 400-dən artıq cədvəl və qrafik yer alıb. Bütövlükdə isə nəşrdə 1000-dən artıq mənbəyə istinad olunub. Kitabın hər bir cildi ilə tanışlıq göstərir ki, Ziyad Səmədzadə Azərbaycanın iqtisadi inkişaf tarixinin araşdırılması işindəki boşluğu doldurmaq üçün olduqca əhatəli və səmərəli iş aparıb. Beşçildlikdən əlavə mündəricat da nəşr edilib. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan, analitik ruhu, faktoloji zənginliyi, aktuallığı, tarixi proseslərə obyektiv yanaşması ilə diqqəti çəkən beşcildlik Azərbaycanın sovet dövrü və müstəqillik tarixinin öyrənilməsi, araşdırılması və təbliği baxımından böyük maraq doğuracaq".

Tədbirdə çıxış edən akademik ***Ziyad Səmədzadə*** *isə qeyd etmişdir ki, ölkəmizin keçdiyi tarixi dövr nə qədər mürəkkəbdirsə, onun tədqiqi cəhdləri də bir o qədər çətin və ziddiyyətlidir.* Bütün bunlara baxmayaraq, ölkəmizin inkişaf tarixinin öyrənilməsi diqqət mərkəzində olmalıdır.

Akademik, həmçinin Azərbaycanın dövlət müstəqilliyinin 10-cu ildönümünə həsr olunmuş müşavirədə (2 oktyabr 2001-ci il) Heydər Əliyevin çıxışında qeyd etdiyi fikirləri diqqətə çatdırmışdır:

"Biz indi xalqımızın tarixinin yaradılması işini diqqət mərkəzinə alaq. Xatırlaya bilərsiniz, 70-ci illərdə mən dəfələrlə Milli Elmlər Akademiyasının qarşısında vəzifə qoymuşdum ki, Azərbaycanın tarixi yazılmalıdır... O vaxtkı ümumi ideologiyanın təsiri, yaxud bu ideologiyanın tələbi ilə yazılan tarix də, şübhəsiz ki, indi bizi qane edə bilməz. İndi vəzifə ondan ibarətdir ki, Azərbaycanın tarixi yazılmalıdır. Mən bunu bir neçə dəfə demişəm. Ancaq təəssüflər olsun ki, mənim bu təklifim müqabilində Elmlər Akademiyası tərəfindən konkret bir təklif almamışam. Mən bir-iki dəfə demişəm ki, Azərbaycanın XX əsr tarixi yazılmalıdır".

Ulu öndər Heydər Əliyev bu məsələnin vacibliyini bir daha vurğulayaraq qeyd edirdi ki, ***"... Biz indi nə qədər çətinliklərlə, məhrumiyyətlərlə rastlaşsaq da, özümüzü xoşbəxt hesab etməliyik. Xalqımızı xoşbəxt hesab etməliyik ki, biz artıq on ildir müstəqil dövlət kimi yaşayırıq. Artıq bunu dəyişmək, bunu sarsıtmaq mümkün deyildir. Ona görə də bizim bu on illik tarixi-miz yazılmalıdır. Bəlkə də bu on ilin gündəliyi yazılmalıdır. Hansı gün nə olub, Azərbaycan hansı gün nə vəziyyətdə olubdur, hansı gün nə fəlakət qarşısında olubdur. Çünki zaman gələcək, Azərbaycan müstəqil bir dövlət kimi daha da möhkəmlənəcək, iqtisadi cəhətdən inkişaf edəcək, Azərbaycan möhkəm və qüdrətli bir dövlət olacaqdır. Ancaq gələcək nəsillər də gərək bunu unutmasınlar. Tariximizin bu səhifəsi, bu on illik səhifəsi, hesab edirəm ki, bizim xalqımız üçün və gələcək nəsillər üçün ən əhəmiyyətli bir dövrdür".***

Beşcildliyin yazılmasına təkan verən əsas məqsədlərə toxunan akademik onu da bildirmişdir ki, "Ulu öndər Heydər Əliyevin XX əsrdə, müstəqillik illərində Azərbaycanın inkişaf tarixinin yazılması ilə əlaqədar yuxarıda qeyd olunan tövsiyələri, arzuları məni bu məsələnin öyrənilməsinə şövq etdi. İşin nə qədər mürəkkəb, çətin olduğunu və məsuliyyətimi bildiyimə baxmayaraq, mən XX əsrin ilk onilliklərindən başlayaraq, XXI əsrin indiki dövrə qədər müddətdə Azərbaycan iqtisadiyyatının keçdiyi inkişaf yolunu təhlil etməyə cəhd etmişəm. Bildirirəm ki, respublikamızın iqtisadi inkişafının aktual problemləri mənim tədqiqat fəaliyyətimdə yarım əsrdən çox müddətdə özünə yer alıb. Tariximizin hər bir mərhələsi Azərbaycanın tərəqqisi yolunda iz buraxmış, onun sosial-iqtisadi həyatında müsbət dəyişikliklərlə müşayiət olunmuşdur. Nəşrin I və II cildləri Azərbaycan iqtisadiyyatının müstəqilliyə qədər olan dövrdə inkişaf məsələlərinə həsr edilmişdir. Azərbaycan iqtisadiyyatının 100 il ərzində inkişaf tarixi, xüsusilə də son 30 illik təcrübəsi onu göstərir ki, yalnız müstəqil dövlət, onun güclü lideri, yaratdığı təkmil iqtisadi-siyasi sistemi ölkənin dinamik inkişafının, sabitliyinin əsaslarını möhkəmləndirir, qloballaşmanın mənfi təsirlərinin qarşısını almaq imkanına malik olur. Azərbaycan dövləti son 30 ildə dəhşətli fırtınalardan uğurla çıxdı, düşünülmüş siyasət nəticəsində dünyada nüfuz qazandı, heç kimə boyun əymədi, özünün ərazi bütövlüyünü təmin etmək üçün güclü iqtisadiyyat, güclü ordu, güclü xalq-iqtidar birliyi yaratdı. Nəşrin üçüncü və dördüncü cildlərində ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə 1993-2003-cü illər respublika iqtisadiyyatında əldə olunan dinamik inkişaf prosesləri konkret istiqamətlər üzrə araşdırılır (neft strategiyası, "Əsrin müqaviləsi"nin reallaşması, Azərbaycanın beynəlxalq iqtisadi əməkdaşlığının genişləndirilməsi, özəl sektorun, sahibkarlığın, investisiya mühitinin formalaşması, regional iqtisadiyyat, hüquqi-iqtisadi qanunvericilik bazasının yaradılması, maliyyə-büdcə, pul-kredit, sənaye siyasəti, aqrar islahatlar və s.), davamlı iqtisadi-sosial inkişafın fundamental əsaslarının yaradılması məsələlərindən bəhs edilir.

Çoxcildlikdə XIX-XX əsrlərin qovşağındakı dövrdən başlayaraq, indiyədək iqtisadiyyatda resurs (neft) amilinin rolu konkret faktlar əsasında araşdırılır.

Göstərilir ki, neftlə zəngin olan bir sıra ölkələr təbii resurslarının satışından əldə etdikləri külli miqdarda vəsaitlərdən istifadədə səmərəsizliyə yol vermiş, onların şəffaflığını təmin etməmiş, digər sahələrin inkişafını arxa plana atmışlar. Nəticədə təbii resursların bolluğu, yüksək gəlirlər "xoşbəxtlik" amilinə deyil, "baş ağrısı"na çevrilmişdir. Azərbaycan dövləti bu həssas məsələyə münasibətdə öz yolunu seçdi. Neft amilindən özünün müstəqilliyinin, iqtisadi təhlükəsizliyinin güclü əsaslarını yaratmaq üçün istifadə etdi və bu düzgün siyasətin uğurlu nəticələri bütün dünyaya bəllidir.

Nəşrin sonrakı cildlərində bütün bunlar barədə, xüsusilə də ulu öndər Heydər Əliyevin müəyyən etdiyi Azərbaycan dövlətinin inkişaf siyasətinə sadiqlik nümayiş etdirən, müstəqilliyimizin qorunması, əbədi olması üçün müstəqil iqtisadi siyasət yeridən Prezident İlham Əliyevin rəhbərliyi ilə 2003-2021-ci illərdə ölkə iqtisadiyyatının davamlı və keyfiyyətli inkişafını təmin edən kompleks amillər - istehsal və sosial infrastruktur problemlərinin həyata keçirilməsi, sənayeləşmə siyasəti, qeyri-neft sektorunun inkişafı və onun quruluşunun təkmilləşdirilməsi, regional siyasət, demoqrafik inkişaf və məşğulluq problemləri, ordu quruculuğu, ölkənin iqtisadi təhlükəsizliyini, enerji təhlükəsizliyini, ərzaq təhlükəsizliyini, keyfiyyətli həyat səviyyəsini təmin edən amillər, icra edilən proqramlar; respublika iqtisadiyyatının yaxın və uzaq gələcəyə hədəflənmiş inkişaf strategiyası ilə bağlı məsələlər açıqlanır.

Hesab edirəm ki, Azərbaycan iqtisadiyyatının 100 ildən çox olan bir dövrdə keçdiyi yolun çətinliyi, mürəkkəbliyi ilə fərqlənən mərhələlərin kompleks təhlili inkişaf tariximizdə olan boşluğu doldurmağa və bəzi ağ ləkələri silməyə imkan verəcək, cəmiyyətdə Azərbaycan xalqının bu inkişaf mərhələsində keçdiyi yol, onun sosial-iqtisadi tərəqqisi və gələcək inkişafının əsasları barədə qərəzsiz, obyektiv təsəvvürlərin formalaşmasına kömək edəcək.

AMEA-nın prezidenti vəzifəsini icra edən akademik ***Arif Həşimov*** *beşcildliyin elmi ictimaiyyətimiz üçün böyük əhəmiyyətindən danışaraq, müəllifi təbrik etdi, onu təkcə iqtisadçılar üçün deyil, Azərbaycanın bütün elm sahələrini əhatə edən məlumatlarla zəngin bir mənbə kimi yüksək qiymətləndirdi.* O qeyd etdi ki, müəllif oxucunun son 100 ildə Azərbaycanın sosial-iqtisadi inkişafı haqqında maksimum həcmli və obyektiv informasiya ala bilməsinə, bu və ya digər dərəcədə inkişafın parametrlərini və strukturunu müəyyən edən meyilləri və amilləri qiymətləndirmək imkanı əldə etməsinə çalışmışdır.

Milli Məclisin Aqrar Siyasət Komitəsinin üzvü, iqtisad elmləri doktoru, professor ***Eldar İbrahimov*** *çıxış edərək bildirmişdir ki, təqdim olunan bu beşcildlikdə Azərbaycan iqtisadiyyatının bütün sahələri, o cümlədən kənd təsərrüfatının keçdiyi böyük inkişaf yolu mərhələ-mərhələ təhlil edilmiş, aqrar sahənin inkişafında baş verən mühüm dəyişikliklər, aktual problemlər, onların həlli yolları nəzərə çatdırılmışdır.* Beşcildliyin "Qarabağ iqtisadiyyatı 100 ildə" adlanan sonuncu cildində isə respublikamızın bu bölgəsində kənd təsərrüfatının ayrı-ayrı sahələrinin, o cümlədən üzümçülük, ipəkçilik, tütünçülük, pambıqçılıq, taxılçılıq, eləcə də maldarlığın inkişaf yolu statistik göstəricilər əsasında təhlil edilmiş, gələcəkdə işğaldan azad olunmuş torpaqlarda coğrafi iqlim şəraiti baxımından kənd təsərrüfatının bir çox sahələrinin inkişaf istiqamətləri proqnozlaşdırılmışdır.

Milli Məclisin Ana və Uşaq Komitəsinin sədri ***Hicran Hüseynova*** *iqtisadiyyatımızın bütün istiqamətlərinin dərin təhlili verilmiş, dəyərli elmi araşdırmalarla zəngin beşcildliyin təqdimatı münasibətilə müəllifə və redaksiya heyətinə təbriklərini çatdırmış, kitabda geniş yer verilmiş ölkə sahibkarlığının keçdiyi tərəqqi yolundan, qarşıdakı perspektivlərdən, respublikada qadın sahibkarlığının inkişafının mühüm mərhələyə yüksəlməsindən, getdikcə cəmiyyətimizdə qadın sahibkarların rolunun artmasınından bəhs etmişdir.*

Təqdimatda çıxış edən AMEA-nın müxbir üzvü, professor ***Qorxmaz İmanov*** *çoxcildlikdə müəllifin respublikanın inkişafının sosial-iqtisadi proseslərinin, inkişaf amilləri və mənbələrinin təkcə iqtisadçı-tədqiqatçı kimi deyil, həm də uzun illər dövlət və qanunvericilik sahəsində məsul vəzifələrdə çalışarkən bir çox mühüm hadisələrin şahidi olmuş, respublikanın ictimai, sosial-iqtisadi həyatının köklü problemlərinin araşdırılmasında iştirak edən insan kimi təhlil edildiyini diqqətə çatdırmışdır.* Bu kitab Azərbaycan iqtisadiyyatının öyrənilməsi, araşdırılması və tədqiq edilməsi işinə böyük töhfədir.

Xəzər Səhmdar Cəmiyyətinin sədri, iqtisad elmləri doktoru ***Qüdrət Kərimov*** *"Azərbaycan iqtisadiyyatı 100 ildə" beşcildliyinin işıq üzü görməsi münasibətilə müəllifi təbrik etmş, kitabı müasir Azərbaycan iqtisad elminin mühüm nailiyyətlərindən biri kimi qiymətləndirmişdir.* Qüdrət Kərimov bidirmişdir ki, beşcildlikdə Azərbaycanda müstəqilliyin əldə edilməsindən sonra sahibkarlığın inkişafının yeni vüsət alması, dövlət tərəfindən ölkə sahibkarlığının inkişafına daim qayğı və dəstək göstərilməsi geniş şərh edilmişdir. Bunun nəticəsidir ki, işğaldan azad olunmuş ərazilərimizdə sahibkarlıq subyektləri bərpa və quruculuq işlərində fəal iştirak edirlər.

Xalq yazıçısı ***Çingiz Abdullayev*** *çıxışında öncə belə bir mükəmməl 5 cildliyə görə akademik Ziyad Səmədzadəyə minnətdarlığını bildirmişdir:* ***"Mən Ziyad müəllimi uzun illərdir, hələ 40 il öncədən, onun qardaşı ilə bir yerdə işləyən vaxtlarımdan tanıyıram. O zaman Ziyad müəllim Mərkəzi Komitədə işləyirdi və bilirdim ki, orada belə bir böyük şəxsiyyət var. Sonra Ziyad müəllimi daha yaxından tanıdım, onunla qohum olduq. Onun necə böyük ziyalı olduğuna bir daha şahid oldum. Eyni zamanda, "təvazökar" sözünün əleyhinəyəm. Əsl alim, əsl yazıçı, şair təvazökar ola bilməz. Alim ona görə təvazakör ola bilməz ki, onun elmi yaradcılığı ilə hər kəs tanış olmalı, bəhrələnməlidir. Yazıçı, şair ona görə təvazökar ola bilməz ki, insanlar onun yazdıqlarını oxumalıdır, bilməlidir. Əgər alimin elmi yaradıcılığı, yazıçının, şairin əsərləri ilə tanış olunmayacaqsa, onda təvazökarlığın nə mənası qalır?! Ona görə deyirəm ki, əsl alim, əsl yazıçı, şair təvazökar ola bilməz".*** O, əlavə edib ki, müəllif kitabın beşinci cildini Qarabağ mövzusuna həsr edib. Bu cilddə XIX əsrdən başlayaraq indiyədək Azərbaycan ərazilərində gedən proseslər, Azərbaycanın bu dövrdə üzləşdiyi milli və siyasi ədalətsizliklər, torpaqlarımızın işğalı və Vətən müharibəsində qazanılan Zəfərin ölkəmizi bütün dünyaya qalib dövlət kimi tanıtmasından bəhs edilib. Bu zəfər üçün biz hamımız Ali baş Komandanın rəhbərliyi ilə

Azərbaycanın 100 illik iqtisadi inkişaf tarixi yazıldı

Müzəffər ordumuza və canını qurban vermiş 3000-dən artıq şəhidlərimizə borcluyuq.

Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiri, professor ***Məhiş Əhmədov*** *çıxış edərək bildirmişdir ki, respublikamızın ictimaiyyəti akademik Ziyad Səmədzadəni böyük alim və praktik iqtisadçı, bacarıqlı təşkilatçı, qabaqcıl dünya təcrübəsinə və milli reallıqlara əsaslanan, müasir, mütərəqqi iqtisadi ideyaların daşıyıcısı və fəal tədqiqatçısı kimi tanıyır.* Onun milli iqtisadiyyatın inkişafı, səmərəliliyi, strukturu, təhlükəsizliyi, təkrar istehsalın sürət və proporsiyaları, məşğulluq, demoqrafik proseslərə həsr olunmuş fundamental tədqiqatları, monoqrafiyaları iqtisad elmində xüsusi yer tutur. Akademik Z.Səmədzadənin elmi tədqiqatları respublikamızın iqtisadi və sosial inkişafı ilə bağlı nəzəri və praktiki problemlərin işlənməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.

Ziyad müəllimin təqdim etdiyi "Azərbaycan iqtisadiyyatı 100 ildə" beşcildliyində milli iqtisadiyyatımızın 100 ildə keçdiyi çətin, ziddiyyətli, sınaqlarla dolu olan mürəkkəb inkişaf yolu təhlil edilir, həmçinin Azərbaycan iqtisadiyyatı qlobal, ümumdünya miqyaslı iqtisadi inkişaf kontekstində tədqiq olunur. Müəllif burada haqlı olaraq belə bir qənaətə gəlir ki, qoballaşma və ümumdünya inteqrasiya proseslərinin dərinləşməsi şəraitində gənc, müstəqil dövlətin milli dövlətçilik mənafelərinin, onun iqtisadi təhlükəsizliyinin təmin edilməsi çox böyük əhəmiyyət kəsb edir.

Bununla bağlı o, hələ 30 il bundan əvvəl ölkənin milli iqtisadi modelinin formalaşmasında iqtisadi təhlükəsizlik problemlərinin nəzərə alınmasını xüsusi vurğulamışdır.

XXI əsrin 20 ildən artıq dövrü ərzində Azərbaycanın sosial-iqtisadi inkişaf dinamikası onu deməyə əsas verir ki, müstəqil dövlətimiz özünün inkişaf strategiyasını, məqsəd və vəzifələrini dəqiq müəyyənləşdirmiş, davamlı inkişafın tələblərinə uyğun, yaşayış səviyyəsini təmin etməyə imkan verən, özünəməxsus, unikal inkişaf modelini formalaşdırmışdır.

Cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Biz neft gəlirlərindən səmərəli istifadə etməklə iqtisadiyyatımızı böyük dərəcədə şaxələndirə bilmişik və Azərbaycanda iqtisadi artım sürəti bunun bariz nümunəsidir. Ona görə də biz beynəlxalq iqtisadi əməkdaşlıq məsələlərinə həmişə öz mövqeyimizdən yanaşırıq".

"İqtisadiyyat"

"Azərbaycan iqtisadiyyatı 100 ildə" toplusu çağdaş iqtisad elmi üçün əvəzsiz xəzinədir

Mayın 24-də akademik Ziyad Səmədzadənin 5 cildlik "Azərbaycan iqtisadiyyatı 100 ildə" toplusunun təqdimat mərasimində «İqtisadiyyat» qəzeti olaraq Azərbaycan Kooperasiya Universitetinin Elm və innovasiyalar üzrə prorektoru, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Bəyalı Ataşovun fikir və təəssüratlarını aldıq, düşüncələrini dinlədik:

«Mən Ziyad müəllimi çoxdan tanıyıram. Uzun müddət onunla elmi əməkdaşlıq edən, onun yaxın köməkçisi və silahdaşı olan bir iqtisadçı kimi çağdaş Azərbaycan iqtisad elminin korifeyi və ağsaqqalı haqqında qısa şəkildə öz təsərrüfatlarımı sizində bölüşmək istərdim.

25 yaşında namizədlik, 31 yaşında doktorluq dissertasiyaları müdafiə etmiş, 37 yaşında professor olmuş Ziyad müəllim vaxtı ilə yüksək vəzifələrdə çalışarkən belə bir gün də olsa, elmi tədqiqatlarından əl çəkməmişdir.

Respublikada əmək məhsuldarlığı, iqtisadi inkişaf, sürət və proporsiyalar, milli gəlir və səmərəlilik problemləri üzrə yaranmış elmi məktəb bilavasitə akademik Ziyad Səmədzadənin xidmətidir. O, Azərbaycan və dünya iqtisadiyyatının problemlərinə dair 600-dən çox əsərin, çoxsaylı monoqrafiya və çoxcildliklərin müəllifidir.

Beynəlxalq Menecment Akademiyasının, Avropa Beynəlxalq Akademiyasının Azərbaycan bölməsinin akademiki, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti və Azərbaycan İqtisadçılar İttifaqının sədri və "İqtisadiyyat" qəzetinin təsisçisi kimi Ziyad Səmədzadə müasir sivilizasiyanın aktual problemlərinin araşdırılmasında, Azərbaycan dövlətinin, onun iqtisadi qüdrətinin möhkəmləndirilməsində bir vətəndaş, bir alim kimi çox fəal iştirak edir.

Uzun müddət AR Milli Məclisinin İqtisadi Siyasət Komitəsinə rəhbərlik etmiş və hazırda da millət vəkili kimi ölkədə iqtisadi qanunvericilik bazasının möhkəmləndirilməsi, büdcə sisteminin təkmilləşdirilməsi və s. məsələlərin həllində Ziyad müəllimin təşəbbüsləri və zəhməti danılmazdır. Çox fərəhli haldır ki, iqtisad elminin inkişafındakı xidmətlərinə və fəal ictimai-siyasi fəaliyyətinə görə əzizimiz Ziyad müəllim Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə ən yüksək dövlət mükafatları ilə - həm "Şöhrət", həm "Şərəf" ordenləri və "1-ci dərəcəli Vətənə xidmətə görə" medalı ilə təltif edilmişdir.

Ulu öndərin və Müzəffər Ali Baş Komandan İlham Əliyevin kəlamları ilə başlanan və bu gün təqdimatına toplaşdığımız 5 cildlik "Azərbaycan iqtisadiyyatı 100 ildə" toplusu çağdaş iqtisad elmi üçün tarixi və faktoloji mənbə baxımından əvəzsiz bir xəzinədir. Bu xəzinədən uzun müddət alimlərimiz və gənc tədqiqatçılarımız doyunca bəhrələnəcək və Ziyad müəllimə buna görə həmişə minnətdar olacaqlar. Ölkəmizin 100 illik iqtisadi tarixinin toplu şəklində ərsəyə gətirilməsi onu göstərir ki, bu qüdrətli qələm sahibinin ürəyi hələ də gənclik hərarəti və tükənməz enerji ilə döyünür və bizi gələcəkdə də yeni, sanballı əsərləri ilə sevindirəcək. Biz buna qətiyyən şübhə etmirik, çünki çoxdandır ki, akademik Ziyad Səmədzadə tükənməz zəhməti hesabına əsərlərinin kəmiyyətinə və keyfiyyətinə görə respublikamızın ən məhsuldar alimi titulunu qazanmışdır.

Mən akademik Ziyad Səmədzadəyə möhkəm can sağlığı arzulayıram. Qoy, o, həmişə vulkana bənzər elm ocağı kimi kükrəsin, həm gələcəyə işıq saçsın, həm də ətrafı daim isitsin!»



"Azərbaycan" adlı Günəşin parladığı gün...

"Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. Ancaq buna baxmayaraq, Azərbaycan Demokratik Respublikası bir çox işləri görə bildi.

Dövlət atributları təsis edildi və bu gün bizim dövlət bayrağımız, dövlət himnimiz Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş dövlət atributlarıdır..."

İlham ƏLİYEV

Ötən 20-ci əsr Azərbaycan xalqının tarixində bir çox mühüm, unudulmaz hadisələrlə zəngin olub. Bunlar arasında qanlı-qadalı, millətimizin məhvinə, onun bir toplum olaraq, yer üzündən silinməsinə yönəldilmiş hadisələr (1918-ci ildə baş verənlər, 30-cu illərin qanlı repressiya əməlləri və s.) olsa da, qürur və iftixar hissi doğuracaq, imzalar içində imzası olacaq hadisələr də az olmayıb. Bu hadisələr, yaşantılar içərisində, heç şübhəsiz ki, əsrin əvvəllərində, ikinci dekadasında tarixdə ilk müstəqil Azərbaycan dövlətinin yaradılması ən öndə gəlir. 1918-ci ildə babalarımız, istiqlal mücahidlərimiz, işıqlı ziyalılarımız tarixdə ilk dəfə müstəqil Azərbaycan dövlətinin, Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) və ya (ADR) yaradılmasına nail oldular. Qeyd edək ki, həmin vaxta qədər dünyada onlarla dövlət (və ya imperiyalar) mövcud olsa da, Demokratik sözünü də öz adında ilk dəfə gerçəkləşdirən, rəsmiləşdirən məhz cümhuriyyət qurucularımızın qurub-yaratdığı, necə deyərlər, quru torpaq üzərində yoxdan var etdikləri dövlətimiz oldu. Azərbaycan o zaman təkcə müstəqil dövlət kimi tarixə düşmədi, həm də ilk olaraq demokratik dəyərləri özündə ehtiva edən və onu adı ilə qoşalaşdıran bir dövlət, məmləkət kimi tarixə yazdırdı...

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin və Hökumətinin üzvləri AXC-nin rəsmən tanınması şərəfinə

Qeyd edək ki, hər bir müstəqil dövlətin var olma, ayaqüstə dik dura bilmə səbəblərindən biri də onun milli qanunverici orqanının mövcudluğudur. Cümhuriyyət qurucularımız da məhz bu mövqedən çıxış edərək, Müsəlman-Şərq aləmində nəinki ilk demokratik respublikanı elan etdilər, həm də onun əsas atributlarından olan milli qanunverici orqanı - Azərbaycan Parlamentini formalaşdırdılar.

1918-ci ilin may ayının 28-də Zaqafqaziya Seymində müsəlman fraksiyası özünü Azərbaycan Milli Şurası elan etdi. Bununla əslində Azərbaycanın ilk Parlamenti yarandı və ilk parlamentli respublikanın bünövrəsi qoyuldu. İstiqlal bəyannaməsində bəyan edildiyi kimi, ***"Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur".***

Tiflisdə yeni müstəqil dövlətin yaradılması ilə əlaqədar təşkilati tədbirləri həyata keçirdikdən və onu bütün dünyaya bəyan etdikdən (30 may 1918-ci il) sonra, Azərbaycan Milli Şurası və Azərbaycan hökuməti fəaliyyətini bilavasitə öz ölkəsi ərazisində həyata keçirmək məqsədilə 1918-ci il iyunun 16-da Gəncəyə köçdü. Milli Şura və Azərbaycan hökuməti burada mürəkkəb daxili və xarici çətinliklərlə üzləşdi. Xoyski istefa verdi. Lakin Milli Şura hökumətin təşkilini yenidən ona tapşırdı. Müxtəlif partiyaların nümayəndələrindən təşkil olunmuş yeni hökumətdə Xoyski baş nazir vəzifəsi ilə yanaşı, ədliyyə naziri vəzifəsini də tutdu...

1918-ci il sentyabrın 17-də Fətəli xan Xoyski kabinetinin təşkilindən üç ay sonra Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçdü. Bakı paytaxt elan olundu. Noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı üzərində aypara və səkkizguşəli ulduz təsviri olan üçrəngli bayraqla əvəz olundu. İctimai-siyasi, iqtisadi və mədəni həyatın müxtəlif sahələrində quruculuq işləri daha da genişləndirildi. Parlamentli respublika idarəçiliyinin hüquqi norma və qaydalarına sadiq qalan Fətəli xan Xoyski hökuməti, eyni zamanda, Müəssislər Məclisinin çağırılması üçün hazırlıq görməyə başladı. Azərbaycan Milli Şurasının 1918-ci il noyabr ayının 19-da böyük öndər Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə keçirilən iclasında Azərbaycan parlamentçiliyi tarixinin çox mühüm qərarları qəbul olundu. O zaman Azərbaycan Xalq Cümhuriyyəti fövqəladə dərəcədə çətin və mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, son dərəcə demokratik inkişaf yolu tutdu. 19 noyabr tarixli həmin iclasda qeyd olundu ki, parlamentdə dövlətin hüdudlarında yaşayan bütün millətlər təmsil olunmalıdır. Bu ərazilərdə Qafqaz təqvimində verilmiş məlumatlara əsasən 2750000 nəfər əhali vardı ki, onlardan 1900000 nəfəri müsəlman, 500000 nəfəri erməni, 230000 nəfəri isə ruslar idi. Hər 24 min nəfərdən bir nümayəndə hesabı ilə müsəlmanlar 80, ermənilər 21, ruslar 10 nümayəndə göndərməli idilər. Və beləliklə, Azərbaycan Parlamentini 120 nəfərdən ibarət formalaşdırmaq qərara alınır. Azərbaycan Milli Şurası adından onun sədri M.Ə.Rəsulzadənin imzası ilə 1918-ci il noyabrın 29-da Azərbaycan və rus dillərində "Bütün Azərbaycan əhalisinə!" Müraciətnaməsi dərc edilir.

Və beləliklə, 1918-ci ilin dekabr ayının 7-də gündüz saat 13:00 radələrində Azərbaycan xalqının böyük oğlu, dünya mesenatları arasında şərəfli yeri olan Bakı milyonçusu, böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Nikolayev küçəsində yerləşən keçmiş qızlar məktəbinin binasında (hazırda Əlyazmalar İnstitutunun yerləşdiyi bina) Azərbaycan Parlamentinin təntənəli açılışı oldu. Bu, bütün müsəlman Şərqində o dövrün ən demokratik prinsipləri əsasında formalaşdırılmış ilk parlament idi. Parlamentin açılışında Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadə geniş təbrik nitqi söylədi.

"Müsavat" fraksiyasının təklifi ilə Əlimərdan bəy Topçubaşov parlamentin sədri, doktor Həsən bəy Ağayev isə onun birinci müavini seçildi. 1918-ci il dekabrın 26-da Fətəli xan Xoyski parlamentdə öz proqramı ilə çıxış etdi və yeni hökumətin tərkibini təsdiq olunmağa təqdim etdi. Parlament hökumətin proqramını qəbul etdi və F.Xoyskinin təşkil etdiyi hökumətə etimad göstərdi.

Parlamentin I dövrü – 1918-ci il mayın 27-dən noyabrın 19-dək davam etmişdir. Bu altı ay ərzində Azərbaycan Milli Şurası adı ilə fəaliyyət göstərən və 44 nəfər müsəlman-türk nümayəndədən ibarət olan ilk Azərbaycan Parlamenti çox mühüm tarixi qərarlar qəbul etmişdir. İlk Parlamentimiz 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyini elan etmiş, ölkənin idarə olunmasını öz üzərinə götürmüş və tarixi İstiqlal bəyannaməsini qəbul etmişdir.

Azərbaycan Milli Şurasının o zaman çox mürəkkəb və həlledici bir tarixi məqamda Tiflisdə-Qafqaz canişininin iqamətgahında elan etdiyi İstiqlal bəyannaməsi Azərbaycan demokratiyası və parlamentarizm ənənələri tarixinin ən parlaq hüquqi sənədi olaraq bu gün də öz tarixi və əməli əhəmiyyətini saxlamaqdadır.

* * * * *

Çox mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, xalqımızın milli oyanışını əbədi etməyə çalışan Cümhuriyyət hökuməti və parlamenti elmin, təhsilin və xalq maarifinin, səhiyyənin inkişafını diqqət mərkəzində saxlayırdı. Xüsusilə də Bakı Dövlət Universitetinin açılıb-açılmaması məsələsi bir neçə ay müddətində qızğın müzakirəyə səbəb olmuş, bununla bağlı dəfələrlə ciddi mübahisələr getmişdi. Bəzi deputatlar universitetdə dərs demək üçün yüksəkixtisaslı milli kadrların olmaması səbəbindən universitetin rus dilində açılması təklifi ilə çıxış edirdilər. ***O dövrdə Azərbaycanda sosial-iqtisadi və ictimai-siyasi vəziyyət son dərəcə mürəkkəb idi. Buna baxmayaraq, xalqın elmə, təhsilə olan güclü meyili Bakı Dövlət Universitetinin yaranması ilə nəticələndi.*** Azərbaycanda elm və təhsilin inkişafı, milli kadrların yetişdirilməsi məqsədilə xarici ölkələrin müxtəlif ali məktəblərində təhsil almaq üçün azərbaycanlı tələbələrin xaricə göndərilməsi sahəsində də cümhuriyyət parlamenti və hökuməti mühüm işlər görmüşdü. Azərbaycan hökumətinin 100 nəfər azərbaycanlı gənci xarici ali məktəblərdə təhsil almaq üçün dövlət hesabına xarici ölkələrə göndərmək haqqında hazırlanmış qanun layihəsi parlamentdə geniş müzakirə edilərək qəbul olunmuşdu. 1919-cu il sentyabrın 1-də Azərbaycan parlamenti xaricə göndərilən tələbələr üçün 7 milyon rubl vəsait ayrılması haqqında qərar çıxarmışdı. Xaricə göndəriləcək tələbələri seçmək üçün parlament üzvləri - ***Məmməd Əmin Rəsulzadə, Mehdi bəy Hacınski, Əhməd bəy Pepinov, Qara bəy Qarabəyov və Abdulla bəy Əfəndiyevdən ibarət xüsusi komissiya yaradılmışdı.***

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin cəmi 23 aylıq fəaliyyəti dövründə təhsil sahəsində həyata keçirdiyi tədbirlər sonralar Azərbaycanda xalq maarifinin təşkili və inkişafına əməli kömək göstərdi.

* * * * *

Bu gün görülən möhtəşəm işlər Azərbaycan dövlətinin və ilk növbədə, ölkə Prezidentinin Azərbaycan Xalq Cümhuriyyətinə, Azərbaycan Parlamentinə hörmət və ehtiramının ən böyük ifadəsi sayıla bilər. Bundan yüksək dəyərləndirmə və qiymətləndirmə qeyri-mümkündür. Bu, əsl dövlət və dövlətçilik nümunəsidir, bu, əsl vətənsevərlik və millətsevərlik nümunəsidir. Təbii ki, öz milli dövlətinə, ilk müstəqil cümhuriyyətinə, onun qurucularına, öz milli parlamentarizm tarixinə bu cür yüksək dəyər və qiymət verən dövlətin də, dövlət rəhbərinin də yaşamaq, yaratmaq haqqı hamıdan daha çoxdur. Bu haqq Azərbaycanındır, bu haqq ümummilli lider Heydər Əliyevindir, bu haqq ölkə prezidenti İlham Əliyevindir!

Azərbaycan Parlamentinin işçiləri

Azərbaycan Parlamenti

Ziyad Səmədzadə.
Azərbaycan iqtisadiyyatı 100 ildə.
5 cilddə, 1-ci cild.
Bakı, 2021

Azərbaycanda xarici kapitalın son dövrlərdəki inkişaf istiqamətləri

Məlum olduğu kimi, investisiya imkanları ölkənin iqtisadi inkişafını xarakterizə edən əsas göstəricilərdən biridir. İnvestorlar iqtisadi və siyasi sabitliyə malik ölkələrə investisiya yatırmağa üstünlük verirlər.

Azərbaycandakı iş və investisiya mühiti sahibkarlara hər cür fəaliyyətlə məşğul olmağa imkan verir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, 2021-ci ilə qədər sahibkarlıq subyektlərində yoxlamalar dayandırılıb, lisenziyalar və icazələr tələb olunan fəaliyyətlərin sayı, eyni zamanda rüsumlar əhəmiyyətli dərəcədə azaldılıb. Ölkədə vergi, gömrük sahələrində, sosial ödənişlər sistemində genişmiqyaslı islahatlar aparılır. Azərbaycanda məhkəmə-hüquq sistemində həyata keçirilən islahatlar həm də sahibkarlığın inkişaf etdirilməsi və sərmayələrin təşviqi məqsədi daşıyır.

Xarici investisiyanın iqtisadiyatımıza təsir istiqamətləri

Azərbaycanda həyata keçirilən infrastruktur layihələri həm yerli, həm də xarici sahibkarlar tərəfindən biznesin aparılması üçün şərait yaradır. Azərbaycan açıq dənizə (yəni, dünya okeanına) çıxışı olmayan bir ölkə olsa da, ölkəmiz beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrilib. 2017-ci ildə istifa-dəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti Asiya ilə Avropa arasında mühüm nəqliyyat mərkəzi olan Şərq-Qərb Nəqliyyat Dəhlizinin mühüm hissəsi olan qitələri birləşdirir. Son 15 ildə ölkədə 15 min kilometr uzunluğunda yol və magistral yollar çəkilmişdir. "Davos Dünya İqtisadi Forumu"nun hesablamalarına görə, Azərbaycan yolun keyfiyyətinə görə dünyada 34-cü yerdədir.

Ölkə iqtisadiyyatına yönəldilən xarici investisiya növlərindən biri də neft bonuslarıdır. Tipik olaraq, neft bonusları neft sahibinə ya maddi, ya da nağd şəkildə ödənilir. Bu, neft hasilatı və ya nəqlini təmin edən razılaşma müqabilində sahibinə bir növ güzəştdir. Bu cür bonuslar, həmçinin xarici şirkətlər tərəfindən Azərbaycanda neft və qaz hasilatı ilə bağlı müqavilələrin bağlanması ilə əlaqədar olaraq Azərbaycan hökumətinə ödənildi. İlk neft bonusu Azərbaycan hökumətinə BP və Statoil tərəfindən 1992-ci ilin sentyabrında Çıraq və Günəşli yataqlarının işlənməsi barədə sazişin imzalanması ilə əlaqədar verildi. Bu cür bonuslar sonradan bağlanmış müqavilələr üçün də təmin edildi. 1995-ci ildən 2013-cü ilə qədər bağlanmış neft və qaz sazişləri üçün Azərbaycan Hökuməti 197 milyon dollardan çox məbləğdə vəsait aldı.

Portfel yatırımı həm də ölkə iqtisadiyyatına qoyulan xarici investisiya növlərindən biridir. Ümumiyyətlə, bu investisiya növü, xarici vətəndaşlar və ya hüquqi şəxslər tərəfindən ölkənin təsərrüfat subyektləri tərəfindən buraxılmış səhmlər və ya digər qiymətli kağızlar alması yolu ilə, bir ölkəyə investisiya qoyuluşu istiqamətidir. Bu cür qiymətli kağızlara istiqrazlar, veksellər, depozit sertifikatları, bank zaymları və s. daxildir. Azərbaycanda qiymətli kağızlar bazarı lazımı səviyyədə inkişaf etmədiyindən, bu növ xarici investisiyaların Azərbaycan iqtisadiyyatına yönəldilmiş xarici sərmayələrin ümumi həcmindəki payı azlıq təşkil edir. Portfel yatırımı ən çox bank sektorundadır.

2021-ci il vəziyyətinə görə Azərbaycan respublikasının dövlət borcu 17,1 milyard ABŞ dollarıdır. Azərbaycan kimi iqtisadiyyatı olan ölkə üçün bu qədər xarici borc çox böyük sayılmır.

Azərbaycan iqtisadiyyatına cəlb olunan ümumi xarici investisiyaların əksəriyyəti birbaşa investisiyalardır. Bu növ investisiya qoyuluşunun böyük hissəsi enerji sektoruna, daha doğrusu, neft sektoruna yönəldilib.

Məlum olduğu kimi, xarici kapitalın yeni bazara, xüsusən də bank sektoruna genişlənməsinin əsas stimullaşdırıcı amili daha çox mənfəət əldə et-mək və gəlir mənbələri yaratmaqla əlaqədardır. Buna görə hüquqi aspektlər investisiya qurumlarının maraqlarını nəzərə almalı və əlbəttə ki, xarici kapital subyektlərinin bank bazarına daxil olması ilə bağlı qanunların tələblərini optimallaşdıraraq, ölkənin bank sektorunun maliyyə sabitliyini təmin etməlidir. Vurğulamaq lazımdır ki, son 25 ildə dünyanın bir çox böyük bankı gəlirlərini şaxələndirmək və yeni xidmət bazarlarını fəth etmək üçün postsosialist dövlətlərinin və postsovet respublikalarının bank sistemlərində fəal iştirak edir. Bankçılıq sahəsindəki hüquqi baza və xarici kapitalla əlaqəli işlər yüksək səviyyədə olmazsa, xarici kapital subyektlərinin yuxarıda göstərilən ölkələrin bank sektorlarına fəal şəkildə girməsi şübhəsizdir. Əslində, xarici tərəfdaşları investisiya edilən əmlak paylarının nisbəti yox, əmlak paylarının sərbəst şəkildə geriyə alınmasının hüquqi zəmanəti, mənfəətin ixracı, mübahisələrin həlli üçün qəbul edilmiş üsullar və digər praktiki məsələlər maraqlandırır.

Xarici bank kapitalının iştirakının hüquqi müdafiəsi səviyyəsinin yaxşılaş-dırılması və artırılması zamanı bank sisteminin maliyyə əsaslarının inkişafına, bank xidmətlərinin siyahısı və coğrafiyasının genişləndirilməsinə diqqət yetirilməlidir. İnvestisiya subyektlərinin (başqa sözlə, xarici bankların) qarşılıqlı fəaliyyəti və birgə fəaliyyəti uzunmüddətli perspektiv üçün etibarlı münasibətlər və qanunvericilik bazası çərçivəsində qurulmalıdır. Bank sektorundakı investisiya subyektlərinin qarşılıqlı fəaliyyətinin hüquqi tənzimlənməsinin əsas elementləri bank işlərinin təşkili və aparılması üçün beynəlxalq standartların, bankın maliyyə sabitliyinin meyarlarına uyğun olmasının, bankların kredit portfelinin şaxələndirilməsinin və borc kapitalından səmərəli istifadənin nəzərə alınmasıdır. Bundan əlavə, xarici kapitalın cəlb edilməsi prosesləri kommersiya banklarının sərəncamında tələb olunan kredit resurslarının formalaşması nəzərə alınmaqla maliyyə və kredit təşkilatlarının fəaliyyətinin modelləşdirilməsinə birbaşa və dolayı yolla təsir göstərir. Xarici kapitalın ölkənin bank sektorunda fəal iştirakı mövcud bank mexanizmlərinin səmərəliliyini və kommersiya banklarının məcmu kapitalını artırmaqla modernləşdirmək üzrə işləri gücləndirir. Bundan əlavə, xarici kapitalın milli bank sistemində iştirakı müasir bank texnologiyalarının, idarəetmə və marketinq metodlarının, bank risklərinin səviyyəsinin minimuma endirilməsinə yanaşmaların tətbiqinə imkan verir. Bu proseslərdə dövlət tənzimlənməsi və hüquqi aspektlər beynəlxalq bank praktikasına uyğundur və milli qanunvericilikdən irəli gələn tələblər nəzərə alınmaqla, ölkənin bank sektoru subyektlərinin və xarici kapital sahiblərinin aktiv fəaliyyətini təşviq etməlidir. Həmin proseslərin dünya üzrə vəziyyətini xarici investisiyaların ölkələr üzrə bölünməsi göstəricisi əks etdirir (diaqram 1).



Diaqram 1. 2020-ci ildə xarici investisiyaların ölkələr üzrə bölünməsi *(min manatla)*

Diaqramdan göründüyü kimi, 2020-ci ildə xarici investisiyalar daha çox Birləşmiş Krallıqdan gəlmişdir və 1,680 mlrd. manat təşkil etmişdir. Həmin ölkədən investisiyalar əsasən neft sahəsinə yatırılmışdır. İkinci yerdə Türkiyə dayanır, 577,9 mln. manat həcmində investisiya yatırmışdır. Üçüncü yerdə Amerika Birləşmiş Ştatlarıdır və onun investisiya məbləği 475,2 mln. manat təşkil edir. Digər tərəfdən, xarici investisiyaların milli iqtisadiyyatın sahələr üzrə paylaşmasının da müəyyən pozitiv dinamikasını müşahidə edə bilərik

Son dövrlərdə Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyası prosesi intensiv xarakter almışdır. Azərbaycanın xarici ölkələrə qoyduğu birbaşa xarici investisiyaların genişlənməsi və gələcəkdə böyük gəlirlər gətirəcəyi düşünülür.

2020-ci ilin statistikasına görə, Azərbaycanın birbaşa xarici investisiya qoyduğu ölkələr içərisində ön sırada xüsusi çəkisi 26,9 faizlə Türkiyə olmuşdur - 334,4 mln. dollar. İkinci yerdə xüsusi çəkisi 13,8 faizlə Amerika Birləşmi Ştatları gəlir - 171,7 mln. dollar. Üçüncü yerdə xüsusi çəkisi 9,9 faizlə Lüksemburqdur - məbləğ 123,1 mln. dollar. Dördüncü yerdə xüsusi çəkisi 8,2 faizlə Monteneqro gəlir - 101,4 mln. dollar. Beşinci yerdə Rusiya Federasiyasıdır - xüsusi çəkisi 7,6 faizlə 95,2 mln. dollar. Altıncı yerdə isə xüsusi çəkisi 7,5 faiz olan Avstriya dövləti gəlir - 93,5 mln. ABŞ dolları (diaqram 2).

Diaqramdan göründüyü kimi, Azərbaycana birbaşa investisiya axını olması ilə yanaşı, həmçinin Azərbaycan da birbaşa invesitsiya yatırmaqda maraqlıdır və bu tendensiya ildən-ilə artmaqda davam edir. Aydın məsələdir ki, xaricə qoyduğumuz investisiyalar bir müddət sonra bizə mənfəət olaraq geri qayıdacaqdır.

Fikrimcə, xarici investisiyalar iqtisadiyyatın inkişafında mühüm amildir, lakin indiki inkişaf mərhələsində iqtisadiyyata xarici kapital cəlb etməyi çətinləşdirən bəzi problemlər var. Müəyyən olunmuş problemlərin həlli əlverişli investisiya mühitinin yaradılmasını və Azərbaycan iqtisadiyyatına xarici investisiyaların artmasını təmin edəcək xarici investorların cəlb edilməsi kimi tədbirlər iqtisadi inkişafın təmin olunmasının əsasını təşkil etməlidir.

Azərbaycanda kapital ixracının hazırki vəziyyəti energetika sahəsində digər sahələrlə müqayisədə daha müsbət tərzdə cərəyan edir. Bu sahədə yatırılmış xarici investisiyalar daha böyük həcmdə həyata keçirilmişdir və bu tendensiya hələ də saxlanılmaqdadır. Eyni zamanda, xarici investisiyaların ölkədə müxtəlif sahələrdə əlavə dəyər yaradılmasında rolu hələ ki olduqca azdır və bu prosesi sürətləndirmək üçün hökumətimiz tərəfindən köklü və fundamental islahatlar aparılmalıdır.

F.O.Hacıyev, doktorant
Azərbaycan Kooperasiya Universiteti

Bundan əlavə, bankçılıq sahəsində qəbul edilmiş qaydalara riayət etmək üçün bank orqanlarına nəzarət sistemi gücləndirilir. Fikrimcə, qəbul edən ölkənin Mərkəzi Bankı və kommersiya bankları xarici investor seçərkən çox diqqətli olmalıdırlar və bununla da xarici kapitalın cəlb edilməsi, onun istifadəsi zamanı yaranan risklərin minimuma endirilməsi təmin edilir. Yerli banklar qabaqcıl informasiya texnologiyalarından istifadə edərək, bank xidmətləri spektrini daim genişləndirməkdə və xarici bank kapitalının xarici subyektləri üçün öz cəlbediciliyini artırmaqda maraqlı olmalıdırlar. Xarici kapitalın iqtisadiyyatda iştirakını, kapitalın ixracını və qorunmasını artırmaq üçün aşağıdakıları qeyd etmək məqsədəuyğundur:

- *Bank məhsulları və xidmətlərinin lisenziyalaşmasını müstəsna əsasda həyata keçirmək;*
- *Bank sektorunda xarici kapitala qoyulan kvotanın monitorinqi və hesablanması baxımından bank tənzimlənməsini təkmilləşdirmək. Nəticədə, gələcəkdə özünü tənzimləyən təşkilatlar cəmiyyəti yarada biləcək və ya əksinə, bank sektorunda ixtisaslaşmanın ayrı-ayrı sahələri müəyyənləşdiriləcəkdir.*



Diaqram 2. Azərbaycanın 2020-ci ildə xarici ölkələrə qoyduğu nvestisiyaların ölkələr üzrə bölünməsi *(min dollarla)*

Qarabağda 889 yaşayış məskəninin müharibədən əvvəlki vəziyyətinin sənədləşdirilməsi üzrə materiallar hazırlanıb

Azad edilmiş torpaqlarda bərpa işlərinin ən yüksək səviyyədə təşkil olunması, qarşıya qoyulmuş hədəflərin əldə olunması prosesində "Azərsky" peyki vasitəsilə əldə edilən təsvirlər öz töhfəsini verməkdə davam edir.

Ötən il peyk təsvirlərinin istifadəsi ilə 27-si Qarabağ və Şərqi Zəngəzur üzrə olmaqla ümumilikdə 75-dən çox layihə həyata keçirilib.

İşğal nəticəsində dəymiş zərərin qiymətləndirilməsi çərçivəsində azad olunmuş inzibati ərazi vahidləri üzrə 889 yaşayış məskəninin peyk təsvirləri əsasında müharibədən əvvəlki vəziyyətinin sənədləşdirilməsi üzrə sxematik materiallar hazırlanıb.

Dünyada ilk dəfə olaraq Azərbaycanda mobil su ölçmə cihazı ixtira olunub

Gəncə İdman Klubunun prezidenti Elvin Abbasov yeni ixtira edib.

Dünyada ilk dəfə olaraq Azərbaycanda mobil su ölçmə cihazı ixtira olunub. "Suqovuşan" adlanan cihazı "Gəncə" İdman Klubunun prezidenti, "Virtual Azərbaycan" şirkətinin rəhbəri, ixtiraçı Elvin Abbasov hazırlayıb.

Qurğu ilə bağlı açıqlama verən E.Abbasov bildirib ki, bu qurğu vasitəsilə suvarma kanallarından daha səmərəli istifadə etmək mümkün olacaq: "Dünyada ilk dəfə Azərbaycanda ixtira edilən bu cihazı hazırlamaqda əsas məqsədimiz suvarma suyundan səmərəli istifadəyə şərait yaratmaqdır. İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Ordusunun azad etdiyi ərazilərdən biri də Suqovuşan qəsəbəsidir. Həmin cihazımıza da suvarma və elektrik enerjisi baxımından ölkəmiz üçün əhəmiyyəti böyük olan Suqovuşanın adını verdik".

İxtiraçı qeyd edib ki, bu innovativ ixtirada yeni bir yanaşma tətbiq edilib.

Rəqabət Məcəlləsinin layihəsi Nazirlər Kabinetinə təqdim olunub

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən bildirilib ki, Xidmət tərəfindən beynəlxalq təcrübəyə əsaslanmaqla Rəqabət Məcəlləsinin yeni layihəsi hazırlanıb. Məcəllənin layihəsi müvafiq dövlət qurumlarının müsbət rəyi alınaraq İqtisadiyyat Nazirliyi tərəfindən Nazirlər Kabinetinə təqdim olunub.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti

Rəqabət qanunvericiliyinin təkmilləşdirilməsi, bazar subyektlərinin səmərəli və maneəsiz fəaliyyəti məqsədilə hazırlanan layihə rəqabət orqanı və onun statusunu, rəqabət sahəsində bazar subyektlərinin hüquq və vəzifələrini, rəqabəti məhdudlaşdıran saziş və hərəkətləri, həmçinin bazar paylarının coğrafi bölgüsü üçün meyarları müəyyən edir. Layihədə, həmçinin bazarda hökmran mövqe və hökmran mövqedən sui-istifadə hallarının təfərrüatlı izahı, haqsız rəqabət və onun formaları da əksini tapıb.

Sığorta sisteminin düzgün formalaşması güclü iqtisadiyyatın təşkili baxımından çox vacibdir

"Güclü sığorta sisteminin formalaşması digər amillərlə yanaşı, həm də güclü iqtisadiyyatın təşkili baxımından olduqca vacibdir".

Bu fikirləri Azərbaycan Sığortaçılar Assosiasiyasının icraçı direktoru Elman Mirsalayev bildirib.

Türkdilli dövlətlər arasında sığorta sahəsində üzvlüyün təsisi ilə ölkələrimiz arasında informasiya, təcrübə, fikir və kadr mübadiləsinin də aparılacağını qeyd edən Elman Mirsalayev deyib: "Biz Türk Dünyası Sığorta Birliyinin yaradılması ilə dünyaya həm də xüsusi mesajla müraciət edirik. Əminik ki, Türk Dünyası Sığorta Birliyinin üzvlərinin belə bir əməkdaşlıq platformasının yaranması bizim sığorta sistemimizin daha da güclənməsinə və təkmilləşməsinə təkan verəcək".

Samir Şərifov: Ötən il xüsusi sosial müdafiə məqsədilə Prezidentin ehtiyat fondundan 470 milyon manat xərclənib

"Ötən ilin büdcəsi üzrə Prezidentin ehtiyat fondundan 470 milyon manat xüsusi sosial müdafiə məqsədilə xərclənib". Bunu Maliyyə naziri Samir Şərifov mayın 25-də 2021-ci il üçün dövlət büdcəsinin icrası ilə bağlı Milli Məclisin komitə iclasında müzakirələr zamanı deyib.

Nazir bildirib ki, bu vəsaitin 266 milyon manatı korona virusla mübarizə məqsədilə sərf olunub.

Bələdiyyələrə büdcədən 10,5 milyon manat vəsaitin ayrıldığını qeyd edən Samir Şərifov beynəlxalq xərclərin 288 milyon manat təşkil etdiyini bildirib. Qeyd edib ki, bu vəsait beynəlxalq tədbirlərin təşkilinə, xarici ölkələrdə səfirliklərimiz üçün ayrılıb.

O da bildirilib ki, ötən il Dövlət Neft Fondunun xərcləri 7 faiz az olub.

Dövlət büdcəsindən ayrılan vəsaitlər üzrə xəzinədən kənar əməliyyatların həcmi ilbəil artır

Təhlillər göstərir ki, dövlət büdcəsindən ayrılan vəsaitlər üzrə xəzinədən kənar əməliyyatların həcmi ilbəil artır.

Bu barədə Hesablama Palatasının sədri Vüqar Gülməmmədov mayın 25-də 2021-ci il üçün dövlət büdcəsinin icrası ilə bağlı Milli Məclisin komitə iclasında keçirilən müzakirələr zamanı deyib.

Vüqar Gülməmmədov qeyd edib ki, 2021-ci il üçün dövlət büdcəsi ilə bağlı illik hesabata əlavə sənədlər və geniş məlumatlar daxil edilib.

Hesabatın büdcə qanunvericiliyinə uyğun olduğunu qeyd edən V.Gülməmmədov gəlirlərin proqnoz göstərici ilə müqayisədə artıq olduğunu diqqətə çatdırıb.

Büdcənin icrasında dəyişikliklərin əvvəlki illərlə müqayisədə azaldığını qeyd edən sədr 2021-ci ildə dövlət əsaslı vəsait qoyuluşu xərcləri üzrə keçid və infrastruktur layihələrinin üstünlük təşkil etdiyini deyib.

Əmək müqavilələri kağız üzərində deyil, elektron qaydada bağlanacaq

"Əmək və Məşğulluq" altsisteminin istifadəyə verilməsi əmək münasibətlərində köklü dəyişikliklərə səbəb olacaq.

Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı "Əmək və Məşğulluq" mövzusunda keçirilən görüşdə deyib.

O bildirib ki, yeni altsisteminin tətbiqi əmək bazarının bütün iştirakçıları üçün faydalı olacaq və ölkəmizdə bu sahə üzrə ciddi dəstək mexanizmi formalaşdırılır.

"Sözügedən altsistem vasitəsilə əmək müqavilələrinin kağız üzərində deyil, elektron qaydada bağlanması, rəqəmsal kadr uçotuna keçirilməsi, əmək münasibətləri zamanı kağız üzərində aparılan digər əməliyyatların rəqəmsal müstəviyə keçidi təmin olunur. Həmçinin, bu e-platforma işsiz və işaxtaran şəxslərin aktiv məşğulluq proqramlarına əlçatanlığını daha da artıracaq", - deyə icraçı direktor qeyd edib.

«Bakı Şampan Şərabları» ASC-nin 31 dekabr 2021-ci il tarixinə BALANS HESABATI

manat

Maddə №		Hesab №	31.12.2021	31.12.2020
AKTİVLƏR				
1	**Uzunmüddətli aktivlər**			
10	Qeyri-maddi aktivlər	101-102+103	27 500	27 500
11	Torpaq, tikili və avadanlıqlar	111-112+113	4 910 784	4 910 784
12	Daşınmaz əmlaka investisiyalar	121-122	-	-
13	Bioloji aktivlər	131-132	72 362	72 362
14	Təbii sərvətlər	141-142	-	-
15	İştirak payı metodu ilə uçota alınmış investisiyalar	15X	-	-
16	Təxirə salınmış vergi aktivləri	16X	8 781	8 781
17	Uzunmüddətli debitor borcları	17X	-	-
18	Sair uzunmüddətli maliyyə aktivləri	18X-184	-	-
19	Sair uzunmüddətli aktivlər	19X	-	-
	CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR		**5 019 427**	**5 019 427**
2	**Qısamüddətli aktivlər**			
20	Ehtiyatlar	20X-208	2 013 385	2 013 385
21	Qısamüddətli debitor borcları	21X-218	272 844	271 613
22	Pul vəsaitləri və onların ekvivalentləri	22X	1 621	48 976
23	Sair qısamüddətli maliyyə aktivləri	23X-235	-	-
24	Sair qısamüddətli aktivlər	24X	113 859	113 859
	CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR		**2 401 709**	**2 447 833**
CƏMİ AKTİVLƏR			**7 421 135**	**7 467 259**
KAPİTAL VƏ ÖHDƏLİKLƏR				
3	**Kapital**			
30	Ödənilmiş nominal (nizamnamə) kapital	301-302	6 768 718	6 768 718
31	Emissiya gəliri	31X	-	-
32	Geri alınmış kapital (səhmlər)	32X	-	-
33	Kapital ehtiyatları	33X	-	-
34	Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)	34X-344	(91 709)	(54 993)
	CƏMİ KAPİTAL		**6 677 009**	**6 713 725**
4	**Uzunmüddətli öhdəliklər**			
40	Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər	40X	-	-
41	Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər	41X	-	-
42	Təxirə salınmış vergi öhdəlikləri	42X	-	-
43	Uzunmüddətli kreditor borcları	43X	-	-
44	Sair uzunmüddətli öhdəliklər	44X	-	-
	CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR		**-**	**-**
5	**Qısamüddətli öhdəliklər**			
50	Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər	50X	-	-
51	Qısamüddətli qiymətləndirilmiş öhdəliklər	51X	-	-
52	Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər	52X	21 838	86 796
53	Qısamüddətli kreditor borcları	53X	722 283	666 734
54	Sair qısamüddətli öhdəliklər	54X	-	-
	CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR		**744 121**	**753 530**
	CƏMİ ÖHDƏLİKLƏR		**744 121**	**753 530**
CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR			**7 421 130**	**7 467 255**

DİREKTOR

BAŞ MÜHASİB

02.04.2022

manatla

Bölmə / maddə	Maddələrin adı	Hesabın №-si	Qeydlər	01.01.2021 31.12.2021	02.01.2020 31.12.2020
60	Əsas əməliyyat gəliri	601çıxılsın 602 çıxılsın 603		-	-
70	Satışın maya dəyəri	701		-	-
	Ümumi mənfəət			-	-
61	Sair əməliyyat gəlirləri	611		173 974	156 816
71	Kommersiya xərcləri	711		-	5 310
72	İnzibati xərclər	721		32 452	59 453
73	Sair əməliyyat xərcləri	731		179 738	169 447
62 və 74	Fəaliyyətin dayandırılmasından mənfəətlər (zərərlər)	621 çıxılsın 741		-	-
	Əməliyyat mənfəəti (zərəri)			**(38 216)**	**(77 394)**
63	Maliyyə gəliri			-	-
75	Maliyyə xərcləri			-	-
81	Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay	811			
	Vergiqoyulmadan əvvəl mənfəət (zərər)			**(38 216)**	**(77 394)**
90	Mənfəət vergisi	901 üstəgəl 902		-	-
	Adi fəaliyyətdən mənfəət və ya zərər			**(38 216)**	**(77 394)**
64 və 76	Fövqəladə mənfəət (zərər)	641 çıxılsın 761		-	-
80	**Hesabat dövründə xalis mənfəət (zərər)**	**801= Hesablama**		**(38 216)**	**(77 394)**
	Hər səhm üzrə mənfəət	Hesablama			
	Azaldılmış hər bir səhm üzrə mənfəət	Hesablama			

Xarakterinə görə təsnifləşdirməni istifadə etməklə əməliyyat xərcləri haqqında informasiya

Bölmə / maddə	Maddələrin adı	Hesabın №-si	Qeydlər	01.01.2021 31.12.2021	02.01.2020 31.12.2020
	Hazır məhsul və bitməmiş istehsal ehtiyatlarındakı dəyişikliklər	Son qalıqlar çıxılsın ilkin qalıqlar		-	186
	Müəssisə tərəfindən yerinə yetirilmiş və kapitallaşdırılmış işlər	103 və 113 №-li hesabların debetləri üzrə dövriyyə		-	-
	İstifadə edilmiş material ehtiyatları	(701-3) və (701-2) üzrə qalıqların cəmi		-	5 473
	İşçi heyəti üzrə xərclər	(701-3) üstəgəl (711-1) üstəgəl (721-1)		32 452	53 645
	Amortizasiya xərcləri	(701-4) üstəgəl (711-2) üstəgəl (721-2)		-	-
73	**Sair əməliyyat xərcləri**	**731**		**179 737**	**254 928**
	Cəmi əməliyyat xərcləri			**212 189**	**314 232**

DİREKTOR

BAŞ MÜHASİB

02.04.2022

Göstəricilər	Qeydlərə istinad	01.01.2021 31.12.2021	02.01.2020 31.12.2020
Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti			
Hesabat dövründə xalis mənfəət və ya zərər			
Aşağıdakı maddələr üzrə düzəlişlər:			
azlıq təşkil edən mülkiyyətçilərin payı			
fövqəladə gəlirlər və xərclər			
mənfəət vergisi üzrə xərclər			
qeyri-pul maddələri üzrə gəlirlər və xərclər			
investisiya fəaliyyəti və ya maliyyələşdirmə üzrə fəaliyyətə aid olan digər maddələr			
Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər:			
ehtiyatlar	0	(2363)	
ehtiyat debitor borcları və gələcək dövrlərin xərcləri	1231	(91018)	
əməliyyat kreditor borcları və hesablaşmalar	49366	143 213	
Əməliyyat fəaliyyətinə aid fövqəladə pul vəsaitlərinin hərəkəti			
Ödənilmiş (qaytarılmış) mənfəət vergisi			
Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti	50597	49 832	
İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti			
Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də, uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən kapitallaşdırılmayan məsrefləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları			
Uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları			
Törəmə, asılı və birgə müəssisələrdə investisiyaların əldə olunması ilə bağlı pul vəsaitlərinin daxilolmaları			
Törəmə, asılı və birgə müəssisələrdə investisiyaların satışından yaranan pul vəsaitlərinin daxilolmaları			
Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borclar üzrə pul vəsaitlərinin xaricolmaları			
Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borcların geri qaytarılmasından yaranan pul vəsaitlərinin daxilolmaları			
Törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları			
Törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları			
Fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin xaricolmaları			
Fyuçers, forvard, opsion və svop müqavilələrindən yaranan pul vəsaitlərinin daxilolmaları			
Dividentlərin və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmaları			
Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları			
İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları			
İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti			
Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin hərəkəti			
Səhmlərin və digər oxşar alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları			
Müəssisənin öz səhmlərinin və digər oxşar alətlərinin geri alınması məqsədilə pul vəsaitlərinin xaricolmaları			
Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları			
Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları			
Məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları			
Məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları			
Maliyyə icarəsi müqavilələrinin şərtlərin ə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları			
Dividentlər və buna oxşar digər ödəmələ şəklində pul vəsaitlərinin xaricolmaları			
Faizlər şəklində rul vəsaitlərinin xaricolmaları			
Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar fövqəladə xaricolmalar və daxilolmalar			
Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti			
Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)			

Pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti

Göstəricilər	01.01.2021 31.12.2021	02.01.2020 31.12.2020
Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği	(48976)	(856)
İl ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri		
Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı	1 621	48 976

DİREKTOR

BAŞ MÜHASİB

02.04.2022

"S.L.S AUDİT-CONSULTİNG XİDMƏTİ" MMC

Baku, Azerbaijan, Babak ave. 95, apt. 122; mobile: (+99450) 394-66-02
xaladdin-aliyev@mail.ru VÖEN;1603088981
İCAZƏ A/T 213; 02 sentyabr 2020-ci il

«Bakı Şampan Şərabları » Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və Rəhbərliyinə

auditorun hesabatı

Rəy
Mən "Bakı Şampan Şərabları" ASC-nin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.
Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

Rəy üçün əsaslar
Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının " Etika məcəlləsinin" (İESBA məcəlləsi) tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyiləm və digər etik öhdəliklərimi bu tələblərə uyğun olaraq yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

Fəaliyyətin fasiləsizliyinə dair əhəmiyyətli qeyri-müəyyənlik
Mən diqqəti "Bakı Şampan Şərabları" ASC-nin maliyyə hesabatlarına dair izahedici qeydlərində olan koronavirus infeksiyasının yayılması şəraitində və bunun iqtisadi nəticələri ilə bağlı şirkətin fəaliyyətinin davam etdirilməsinə dair qeyri-müəyyənlik faktorlarına yönəltmək istərdim. İzahedici qeydlərdə hazırkı şəraitdə "Bakı Şampan Şərabları" ASC -nin öz fəaliyyətinin fasiləsizliyini təmin etmək sahəsində əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması göstərilmişdir. Bu şəraitlə əlaqədar mən öz mülahizələrimə dəyişikliklər etməmişəm.

Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti
Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti
Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimə daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkar edir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.
BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi mən audit aparılan zaman peşəkar mühakimə tətbiq edir və peşəkar şəffaflıq nümayiş etdirirəm. Mən həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirirəm və rəyimi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirəm. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürəm.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının mantiqiliyini qiymətləndirirəm.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarıram. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığım halda, auditor hesabatında maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyəm və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimə dəyişiklik etməliyəm. Nəticələrin auditor hesabatının tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndirirəm.

Mən Direktora digər məsələlərə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrəm.

Mən həmçinin Direktora bəyanat verirəm ki, müstəqilliyə və müstəqilliyimə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat vermeyimə dair müvafiq etik normalarına riayət etmişəm.

Direktorun nəzərinə çatdırılmış məsələlərdən mən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirəm. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmış şəkildə güman edildiyinə görə mən bu məsələ haqqında hesabatımda məlumatın verilməməsini qərara almadığım halda, mən bu məsələləri auditor hesabatımda təsvir edirəm.

Hesabat 23.05.2022-ci il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri **"Bakı Şampan Şərabları " ASC–nin** rəhbərliyinə təqdim edilir, ikincisi isə auditor təşkilatında saxlanılır.

"S.L.S Audit-Consulting Xidməti"MMC
direktor- auditor: **X.C.Əliyev**

M.Y **23 may 2022-ci il**

Azərbaycanda əmək kitabçaları ləğv olunacaq

Bu barədə Dövlət Məşğulluq Agentliyinin sədri Mustafa Abbasbəyli deyib.
O bildirib ki, yeni "Əmək və Məşğulluq" altsisteminin istifadəyə verilməsi ilə kadr inzibatçılığı insan resursları ilə əvəz olunacaq. Əmək münasibətləri zamanı kağız üzərində aparılan bütün əməliyyatlar elektron qaydada həyata keçiriləcək.

Rüstəm Qasemi: İran-Azərbaycan əlaqələri yüksələn xətlə inkişaf edir

"Prezident İbrahim Rəisinin göstərişinə əsasən, qarşıdakı 20 gün müddətində İran ərazisindən keçməklə Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək körpülərin tikintisinə başlanacaq".
Bu sözləri AZƏRTAC-a müsahibəsində İranın Yol və Şəhərsalma naziri Rüstəm Qasemi deyib. O bildirib ki, inşa ediləcək körpülər və kommunikasiya xətləri hər iki dövlətin milli maraqlarını əks etdirir. Bu infrastruktur layihələr təkcə İran ilə Azərbaycanın deyil, regiondakı bütün dövlətlərin iqtisadi inkişafına böyük təkan verəcək.
Nazir nəzərə çatdırıb ki, Qarabağın işğaldan azad edilməsi regionda yeni reallıqlar yaradıb və İran ilə Azərbaycanın iqtisadi əməkdaşlığına müsbət təsir göstərib. Hazırda Qarabağda birgə sənaye və istehsal məhsullarının istehsalı üçün birgə müəssisələrin yaradılması istiqamətində danışıqlar aparılır. İranın iş adamları və şirkətlər Qarabağın bərpasında iştirak edəcəklər. İran şirkətləri Qarabağa sərmayə yatırmaqla yanaşı, məktəb, xəstəxana və digər ictimai xarakterli binaların tikintisində iştirak edəcəklər. İşğaldan azad olunan Azərbaycan rayonları İran sərhədində yerləşir və burada yaradılacaq birgə müəssisələr qarşılıqlı əlaqələrin inkişafına təkan verməklə yanaşı, sərhədyanı regionların sosial-iqtisadi inkişafını da təmin edəcək.
Rüstəm Qasemi bildirib ki, İran ilə Azərbaycan arasındakı faydalı əməkdaşlıq əlaqələri yalnız işğaldan azad olunan ərazilərdə birgə müəssisə yaratmaqla məhdudlaşmır. Hər iki dövlət beynəlxalq əhəmiyyət daşıyan Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşmasında da iştirak edir. Bu dəhlizə aid olan avtomobil, dəniz və dəmir yolları İran və Azərbaycan ərazisindən keçir ki, bu da tranzit sahəsində əməkdaşlığın artmasını şərtləndirir. Asiyadan Avropaya və əks istiqamətə daşınan yüklər tez və təhlükəsiz şəkildə iki qonşu və dost dövlətin ərazisindən keçməklə onlara əlavə valyuta gəliri gətirəcək.

İtaliya şirkəti ilə əməkdaşlıq əlaqələri müzakirə edilib

İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı Agentliyində (İZİA) İtaliyanın "Iveco Truck & Bus" şirkətinin Asiya bölgəsi üzrə rəhbəri Koray Kurşunoğlu, şirkətin Mərkəzi Asiya və Qafqaz üzrə direktoru Roman Smirnov və digər əməkdaşları ilə Sumqayıt Kimya Sənaye Parkının rezidenti "Az-Tex-Import" MMC-nin direktoru Samir İbadullayevin görüşü keçirilib.
İZİA-nın mətbuat xidmətindən bildiriblər ki, görüşdə Sumqayıt Kimya Sənaye Parkında "IVECO" markalı yüngül, orta, ağır tonnajlı yük və xüsusi təyinatlı avtomobillərin istehsalı, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında texniki xidmət mərkəzinin təşkili və yük avtomobillərinin yığımı layihələrinin reallaşdırılması məsələləri müzakirə edilib.
Qeyd edək ki, bu ilin aprelində Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilən "Az-Tex-Import" MMC Parkın ərazisində "IVECO" markalı yüngül, orta, ağır tonnajlı yük və xüsusi təyinatlı avtomobillərin istehsalı layihəsi həyata keçiriləcək.

Füzuli-Ağdam avtomobil yolunun inşası davam edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın 2021-ci il oktyabrın 17-də Füzuli rayonuna səfəri zamanı təməli qoyulan Ağdam-Füzuli avtomobil yolunun inşası sürətlə davam edir.
Həmin yol Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biri sayılır.
Uzunluğu 64.8 km, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olmaqla tikilir. Yol çiyinlərinin hər bir istiqamətdə 3.75 metr, ayırıcı zolağın eni 2 metr olmaqla yol yatağının eni 26.5 metr təşkil edir. I texniki dərəcəli yolda layihə üzrə 380 metr istinad divarının inşası da aparılır.
Hazırda Ağdam-Füzuli avtomobil yolunda torpaq işlərinin icrası yararsız qruntun çıxarılması, genişləndirmə işləri icra olunur, 26.5 metr enində yeni yol yatağının, yol yatağı hazır olan hissələrdə yol əsasının tikintisi, həmçinin kommunikasiya xətlərinin köçürülməsi işləri davam etdirilir.
Bərdə-Ağdam avtomobil yolunun davamı olan Ağdam-Füzuli avtomobil yolu Ağdam, Ağcabədi, Füzuli rayonları ərazisindən keçir. Yolun inşası Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks istiqamətdə rahat gediş-gəlişi təmin edəcək, yol boyu sosial-iqtisadi inkişafa müsbət təsir göstərəcək.

Azərbaycanda baş verən yüksək inflyasiyanın səbəbləri açıqlanıb

"Azərbaycanda baş verən yüksək inflyasiya əsasən idxal inflyasiyası ilə bağlıdır".
Bunu iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "2021-ci ilin dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib.
Sevinc Həsənova hesab edir ki, yalnız Azərbaycanda deyil, bütün dünyada COVID-dən sonrakı dövrə keçid olaraq yaranmış tələbin qarşılanmasındakı çətinliklər misli görünməmiş inflyasiya təzyiqləri yaradıb.
Onun sözlərinə görə, Azərbaycan iqtisadiyyatı da bu təzyiqlərdən yan ötməyib: "Bizim verdiyimiz proqnozlara nisbətən inflyasiya daha yüksək – 17% olub. Beynəlxalq təşkilatların proqnozuna görə, bu rəqəmin 2021-ci ilin son ayında ən yüksək həddə çatacağı, növbəti ildə əmtəə qiymətləri indeksinin nisbətən 5 dəfə aşağı olacağı, 2022-ci ilin ortalarına qədər həm inkişaf etmiş ölkələrdə, həm də inkişaf etməkdə olan iqtisadiyyatlar üçün pandemiyadan əvvəlki səviyyəyə qayıdacağı ehtimal edilsə də, pandemiyanın təsiri nəticəsində qlobal təchizat və istehsal logistika zəncirində baş vermiş sınmaların hələ də qalması, xüsusilə də son aylar Rusiya-Ukrayna arasında baş verən münaqişə nəticəsində müşahidə olunan təklif şokunun baş verməsi, dünyanın müxtəlif yerlərində baş verən iqlim dəyişiklikləri, o cümlədən, quraqlıq səbəbindən məhsuldarlığın azalması bir sıra məhsulların ixracını azaldıb. Bu da bir çox məshulların qiymətlərinin artmasına gətirib çıxarıb".

Qarabağın görkəmli simaları

Münəvvər Rzayeva (1929-2004)

Heykəltəraş və ilk monumentalçı qadın heykəltəraş, Azərbaycan Respublikasının əməkdar rəssamı Rzayeva Münəvvər Məcid qızı 6 iyun 1929-cu ildə Şuşada anadan olmuşdur. Şuşada tanınmış xalça ustası Məcid kişinin ailəsində böyüyüb. 1950-ci ildə Bakıda Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini, 1956-cı ildə isə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq Akademiyasının heykəltəraşlıq fakültəsini bitirmişdir.

Münəvvər Rzayeva 1953-cü ildən Azərbaycan Rəssamlar İttifaqının Üzvü seçilmişdir. Eyni zamanda, Mədəniyyət Nazirliyinin Dövlət Komissiyasının üzvü olmuş, AMEA Nizami adına Ədəbiyyat Muzeyində bərpaçı rəssam kimi fəaliyyət göstərmiş və bir sıra heykəlləri bərpa etmişdir.

Onun əsərləri Azərbaycan Milli İncəsənət Muzeyi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Ordubadi muzeyi, Siyəzən mədəniyyət evi və Bədii Fondda saxlanılır.

M.Rzayeva psixoloji portret ustası idi. Heykəlləri qranit, mərmər, bürünc, ağac və s. materiallardan istifadə edərək yaradırdı. Yaradıcılığını, əsasən, sənət adamlarının heykəlləri, o cümlədən dövlət xadimlərinin və əmək qəhrəmanlarının heykəlləri, büstləri, barelyefləri təşkil edirdi. Hüseyn Cavid, Sergey Yesenin, Nəriman Nərimanov, Mikayıl Müşfiq, Nazim Hikmətin büstləri onun yaradıcı fəaliyyətində xüsusi yer tutur.

6 iyun 2004-cü ildə Bakı şəhərində vəfat etmişdir.

COVID-19 və meymun çiçəyi yoluxmasında risk qrupu: yaşlı nəsil və gənclər yerlərini dəyişirlər

Almaniyanın səhiyyə qurumu yeni vaksinlənmə kampaniyasına başlamağı planlaşdırır. Lakin bu dəfə əhalinin meymun çiçəyinə qarşı immunlaşdırılması nəzərdə tutulur. Alimlər hesab edirlər ki, əvvəlcə mövcud vaksinlərin effektivliyi, onu haradan almağın və yerli istehsalın təşkilinin mümkün olub-olmaması öyrənilməlidir.

AZƏRTAC xəbər verir ki, meymun çiçəyi əleyhinə vaksin istehsal edən bir sıra şirkətlər var. Avropa İttifaqının üzvlüyündən çıxan və bu səbəbdən Brüssel üçün "xarici ölkə" hesab edilən Böyük Britaniya şirkətləri də bu sıradadır. Alman ekspertlər yoluxanlar ilə təmasda olmuş şəxslər üçün üçhəftəlik karantin tətbiq etməyi məsləhət görürlər. Bu ölkədə kiminsə yoluxması ilə bağlı ümumi protokol və tövsiyələr hələ yoxdur. İlk qaydaların yaxın günlərdə aşkarlana biləcəyi gözlənilir.

AFR Səhiyyə Nazirliyində yenidən risk qrupu ayırıblar. Koronavirusdan fərqli olaraq, çiçək əleyhinə hələ uşaqlıqda peyvənd vurulan dövrdən sonra doğulan gənclər virusa daha çox məruz şəxslər kimi göstərilib. Hesab olunur ki, uşaq yaşında peyvəndlənmiş şəxslər bu baxımdan qorunublar, ona görə gənc nəsil və adıçəkilən yaxşı dövrdən sonra doğulub peyvəndlənməyən insanlar xüsusilə diqqətli olmalıdırlar.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Akif Musayev, Vahid Novruzov, Ədalət Muradov, Qüdrət Kərimov, Elşən Hacızadə, Süleyman Qasımov, Mirqasım Vahabov, Bəyalı Ataşov, Məiş Əhmədov, Aydın Hüseynov, Rəsul Balayev, Müşfiq Atakişiyev, Zahid Məmmədov, Aytən Səmədzadə, Elşad Səmədzadə

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500